# BQXK-nin səkkiz avtomobili Laçın istiqamətinə gedib və geri dönüb



Ekoaksiyanın iştirakçıları martın 28-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən BQXK-yə məxsus bir yük və yeddi minik avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub.

* * *

Ekoaksiya iştirakçıları martın 28-də Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərin Laçından Xankəndi istiqamətinə maneəsiz keçidinə şərait yaradıblar.

Laçından Xankəndiyə doğru hərəkət edən BQXK-yə məxsus bir yük və yeddi minik avtomobilinin aksiya keçirilən ərazidən sərbəst hərəkəti təmin olunub. Bu da Laçın-Xankəndi yolunda humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyətin olmadığını göstərir.

***AZƏRTAC***

Azərbaycan.- 2023.-29 mart.- S.8.

azerbaijan-news.az